# AQRAR ƏRZAQ TƏMİNATI SİSTEMİNİN EFFEKTİVLİK MEYARLARI



**Yeganə Qarayeva,**
*Azərbaycan Texnologiya Universitetinin*
*İqtisadiyyat kafedrasının müəllimi*
*e-mail: yeganaqara@gmail.com*
*https://doi.org/10.30546/2706-7858.2025.4.027*

**UOT**: 339.8
**Xülasə.** *Ölkənin ərzaq təhlükəsizliyinin strateji məqsədlərinin və əsas hədəflərinin reallaşdırılması ərzaq təminatı sisteminin elementlərinin, o cümlədən istehsal, istehlak və bütövlükdə təchizat zənciri həlqələrinin effektivlik meyarları ilə xarakterizə olunur. Aqrar ərzaq təminatının səmərəlilik meyarı, bütün istehsal və istehlak amillərinin təsiri nəticəsində formalaşır. Aqrar sahədə istehsalın həcmi mövcud ehtiyatların rasional istifadəsindən, istehlakın səviyyəsi isə ilk növbədə, təklif olunan məhsulların həcmindən, qiymətlərin dəyişmə meylindən və istehlakçıların alıcılıq qabiliyyətindən asılı olur. Eyni zamanda aqrar ərzaq təminatı sistemi torpaq, əmək və kapitaldan səmərəli istifadə əsasında ölkənin tələbatının ödənilməsi meyarı kimi digər amillərin birgə təsiri ilə formalaşır. Ona görə ölkənin ərzaq təminatının səmərəlilik meyarlarının qiymətləndirilməsi vacib məsələlərdən biri kimi özünü göstərir.*

***Açar sözlər:*** *ərzaq təhlükəsizliyi, ərzaq təminatı, təchizat zənciri, tələb, təklif, səmərə.*
***Key words:*** *food security, food supply, supply chain, demand, supply, efficiency.*
***Ключевые слова:*** *продовольственная безопасность, снабжение продовольствием, цепочка поставок, спрос, предложение, эффективность.*

Aqrar ərzaq təminatı sistemi kənd təsərrüfatının təbii və iqtisadi şəraitini, insan resurslarının fəaliyyətini, demoqrafik və digər xüsusiyyətləri nəzərə alır və bölgələr üzrə diferensiallaşdırılmış strukturla adekvat qidalanmaya ehtiyacları müəyyən edir. "Kənd təsərrüfatı məhsulları istehsalı ilə məşğul olan təsərrüfat subyektlərinin başlıca hədəfi, məhz mövcud resurs potensialından daha səmərəli istifadə etməklə daha çox mənfəət əldə etməkdir" [2, s.36]. Bu baxımdan istehlakçılar üçün tələb olunan miqdarda və çeşiddə kənd təsərrüfatı məhsullarına əhalinin fiziki və iqtisadi əlçatanlığının təmin edilməsi hazırda ən vacib məsələlərdən hesab edilir. Təsadüfi deyildir ki, "Azərbaycan Respublikasının ərzaq təhlükəsizliyi Proqramı"nda "ərzaq təminatı ilə bağlı siyasət"in başlıca istiqamətləri müəyyən edilmiş, "hər bir insanın sağlam və məhsuldar həyat tərzi üçün ərzaqla kifayət qədər təmin edilməsi, yoxsulluğun azaldılması, ərzaq təminatının və ərzaq məh-

sullarından istifadənin səmərəsinin artırılması" [3] əsas hədəflər olaraq önə çəkilmişdir. Bu çərçivədə "Ərzaq məhsullarının tədarükü və təchizatı" Açıq Səhmdar Cəmiyyətinin yaradılması "ərzaq məhsullarının keyfiyyətini daha da artırmaq, dövlət vəsaitlərindən səmərəli istifadəni təmin etmək, regionlarda kənd təsərrüfatı ilə məşğul olan əhalinin sosial rifahının yaxşılaşdırılmasına zəmin yaratmaq, dövlət sifarişi ilə ərzaq məhsullarının satın alınmasının mərkəzləşdirilmiş qaydada həyata keçirilməsini təmin etmək məqsədi" [4] daşıyır. Bütün bunlar effektiv ərzaq təminatı sisteminin formalaşdırılmasının nə dərəcədə əhəmiyyət kəsb etdiyini deməyə əsas verir.

Ərzaq təminatı qlobal təchizat zəncirinin iqtisadiyyatın müxtəlif sahələrinə, xüsusilə kənd təsərrüfatına təsiri ilə əlaqədar olaraq daxili istehsal hesabına ölkənin tələbatının ödənilməsinə və ərzaq məhsullarına əlçatanlığın təmin edilməsinə əsaslanır. Dövlətin ərzaq məhsulları ilə təminatı probleminin həlli yalnız cəmiyyətin bütün üzvlərinin kifayət qədər və rasional şəkildə ərzaq məhsulları ilə təmin edilməsi yolu ilə deyil, həm də beynəlxalq əməkdaşlıq faydalarından fəal istifadə etməklə stabil və effektiv ərzaq təminatı sistemini formalaşdırmaq bacarığı ilə bağlıdır. Öz növbəsində, aqrar ərzaq təminatı sistemi, bütövlükdə ölkə əhalisinin və hər bir fərdin cari ehtiyaclarını elmi baxımdan əsaslandırılmış standartlara uyğun olaraq mövcud resurslardan daha səmərəli istifadə etməklə ərzaq məhsulları ilə təmin etmək imkanını nəzərdə tutur. Göstərilən istiqamətdə "dövlət siyasətinin dayaq nöqtələrindən önəmlisi isə ərzaq resurs potensialından kompleks istifadə etməklə problemin aktuallığını gündəmə gətirməkdir ki, bu da perspektiv təsir dairəsinin genişləndirilməsini ifadə edir" [1, s.46].

Aqrar ərzaq təminatı sistemi kənd təsərrüfatı məhsullarının istehlak yerlərində ödəmə qabiliyyətli tələbə uyğun həcmdə və çeşiddə mövcudluğunu, ərzaq bazarlarında təklifin tələbata uyğunluğunu təmin etməyi nəzərdə tutur. İqtisadi əlçatanlıqla müşayiət olunan tələbatın ödənilməsi səviyyəsi əhalinin müxtəlif təbəqələrinin ərzaq məhsullarını müvafiq qiymətlərlə alma qabiliyyətini, habelə dövlət tərəfindən xüsusi istehlakçılara ərzaq tədarükü üçün ayrılan vəsaitdən istifadə etməklə onları əldə etmək imkanını əks etdirir. Başqa sözlə, tələbatın ödənilməsi səviyyəsi ərzaq bazarının tarazlıq vəziyyəti ilə bağlıdır. Öz növbəsində, kənd təsərrüfatının ərzaq məhsullarına olan tələb və təklifin tarazlığı, əhalinin bütün gəlir qruplarının qida ehtiyaclarını ödəmək imkanlarını təmin edən qiymət səviyyəsində baş verir. Etibarlı aqrar ərzaq təminatı sisteminin effektivlik meyarları, məhz ərzaq bazarının tarazlıq vəziyyəti ilə əlaqəlidir [5, s.38].

Aqrar ərzaq təminatı sisteminin effektivlik meyarlarının mühüm elementləri aşağıdakılardan ibarətdir:

*– əhalinin ərzaq məhsullarına tələbatının ödənilməsi üçün yerli istehsalın stimullaşdırılması;*

*– kənd təsərrüfatı istehsalında rəqabət potensialının artırılması;*

*– bazar infrastrukturunun inkişaf etdirilməsi;*

*– dövlət tənzimlənməsi vasitəsilə ərzaq bazarının sabitliyinin təmin edilməsi;*

*– rəqabət mühitinin yaradılması və s.*

Ölkənin ərzaq təminatı, ilk növbədə, özünütəminetmə səviyyəsindən asılıdır ki, bu da əhalinin ərzaq məhsullarına olan tələbatının əsas hissəsinin daxili istehsal hesabına ödənilməsini nəzərdə tutur. Bu mühüm vəzifəni iqtisadiyyatın ən strateji əhəmiyyətli aqrar sahəsi həll edir. Kənd təsərrüfatının dinamik inkişafı yalnız ərzaq məhsullarına olan tələbatın ödənilməsində deyil, eyni zamanda bütövlükdə ölkə iqtisadiyyatının dinamik inkişafında həlledici rola malikdir. Kənd təsərrüfatı istehsalının torpaq və iqlim şəraitinin fərqliliyini nəzərə alsaq, kənd təsərrüfatı məhsullarının yetişdirilə biləcəyindən asılı olaraq hər bir bölgənin özünün ərzaqla təmin etmək imkanının fərqli olduğunu görmək olar. Bu baxımdan hər bir bölgədə istehsal olunan məhsulların prioritet növlərini müəyyən etmək aqrar siyasətdə vacib məqamlardandır. Ərzaqla özünü təminetmə üçün məhsulların seçilməsi prioritetinin müəyyən edilməsi meyarları aşağıdakıları ehtiva edir:

*– dəyər və fiziki ifadədə əsas ərzaq məhsullarının istehlak səbətində tutduğu xüsusi çəki;*

*– ərzaq məhsullarının dəyəri və istehsalın sə-*

*mərəliliyi;*

– *yerli ərzaq məhsulları istehsalı üçün şəraitin* mövcudluğu;

– *ərzaq məhsulları istehsalı resurslarının mövcudluğu və onlardan səmərəli istifadə;*

– *ərzaq təminatının sabitliyi üçün müxtəlif növ ehtiyatların yaradılması və s.*

Göstərilən meyarları nəzərə almaqla Azərbaycanda kənd təsərrüfatı məhsulları ilə özünü təminetmə səviyyəsinə diqqət yetirərkən məlum olur ki, 2023-cü ildə bir çox məhsullar üzrə yüksək nəticələr əldə edilmişdir. Belə ki, buğda məhsulu üzrə bu göstərici 60,4%, paxlalılar üzrə 62,8%, kartofda 89,8%, bütün növ tərəvəzdə 107,2%, pomidorda 118,9%, bostan məhsullarında 103,2%, meyvə və giləmeyvədə 135,5%, görə də 20% mühüm iqtisadi hədd olaraq qəbul edilir. Hesablamaların nəticəsinin göstərdiyi kimi, Azərbaycanda yerli istehsal hesabına özünü təminetmə səviyyəsi əksər məhsul növləri üzrə 80,0%-in üzərindədir. Bu amil ölkənin ərzaq balansına da müsbət təsir göstərir. Belə ki, 2023-cü ildə Azərbaycanın bitkiçilik məhsulları üzrə icmal ərzaq balansına nəzər saldıqda məlum olur ki, bütün məhsul növləri üzrə yerli istehsal idxalın həcmindən daha çoxdur və ehtiyatların cəmi əhalinin şəxsi istehlak fondundan əhəmiyyətli dərəcədə artıqdır. Məsələn, dənlilərdə istehsalın həcmi idxaldan 2,4 dəfə, buğdada 52,5%, dənli paxlalılarda 50,2%, kartofda 5,4 dəfə, bütün növ tərəvəzdə 31,2 dəfə və s. çox olmuşdur *(cədvəl 1).*

***Cədvəl 1.***

***2023-cü ildə Azərbaycanın icmal ərzaq balansı, bitkiçilik məhsulları üzrə tonlar***

| Məhsullar | İlin əvvəlinə qalıq | İstehsal | İdxal | Ehtiyatların cəmi | Əhalinin şəxsi istehlak fondu |
|---|---|---|---|---|---|
| **Dənlilər (çəltik istisna olmaqla) cəmi:** | 551 856 | 3 139 933 | 1 313 703 | 5 005 492 | 60 123 |
| **Buğda** | 281 259 | 1 792 419 | 1 175 341 | 3 249 019 | 29 195 |
| **Dənli paxlalılar üzrə cəmi:** | 24 733 | 18 229 | 12 131 | 55 093 | 29 976 |
| **Kartof** | 669 720 | 1 010 517 | 186 704 | 1 866 941 | 852 087 |
| **Bütün növ tərəvəz** | 317 893 | 1 825 592 | 58 453 | 2 201 938 | 1 414 418 |
| **Soğan** | 55 038 | 310 259 | 2 401 | 367 698 | 255 399 |
| **Sair tərəvəzlər** | 262 855 | 1 515 333 | 56 052 | 1 834 240 | 1 159 019 |
| **Bostan məhsulları** | 3 518 | 438 198 | 725 | 442 441 | 363 140 |
| **Meyvə və giləmeyvə** | 29 137 | 1 261 310 | 170 289 | 1 460 736 | 706 993 |
| **Üzüm** | 2 294 | 224 517 | 24 644 | 251 455 | 185 620 |

qoz və fındıqda 139,7%, narda 132,8%, üzümdə 93,9%, bütün növ ət və ət məhsullarında 85,3%, süd və süd məhsullarında 84,0%, yumurtada 102,2%, balıq və balıq məhsullarında 75,4% təşkil etmişdir [6].

Ölkənin ərzaq məhsulları ilə özünü təmin etməsi və əhalinin qidalanma keyfiyyətinin yaxşılaşdırılması baxımından aqrar sahənin inkişafı ilə yanaşı, beynəlxalq əmək bölgüsünün imkanlarından da istifadə etmək mühüm məsələlərdən hesab edilir. Ümumiyyətlə, ərzaq məhsullarının idxalının həcmi 20%-dən çox olarsa, o zaman kumulyativ effekt yaranır [7, s.23]. Ona

2023-cü ildə Azərbaycanın heyvandarlıq məhsulları üzrə icmal ərzaq balansına nəzər saldıqda görünür ki, donuz əti və ət məhsulları istisna olmaqla digər məhsul növləri üzrə yerli istehsal idxalın həcmini üstələyir – ət və ət məhsullarında istehsalın həcmi idxaldan 5,7 dəfə, süd və süd məhsullarında 4,8 dəfə, balıq və balıq məhsullarında 2,9 dəfə və s. artıqdır *(cədvəl 2).* Bitkiçilik məhsullarında olduğu kimi, heyvandarlıq məhsullarında da ehtiyatların cəmi əhalinin şəxsi istehlak fondundan əhəmiyyətli dərəcədə çoxdur.

Dövlətin aqrar ərzaq təminatı sisteminin

*Cədvəl 2.*
***2023-cü ildə Azərbaycanın icmal ərzaq balansı, heyvandarlıq məhsulları üzrə tonlar***

| Məhsullar | İlin əvvəlinə qalıq | İstehsal | İdxal | Ehtiyatların cəmi | Əhalinin şəxsi istehlak fondu |
|---|---|---|---|---|---|
| **Ət və ət məhsulları cəmi:** | 11 600 | 379 726 | 66 751 | 458 077 | 441 458 |
| **Mal əti və ət məhsulları** | 3 620 | 152 787 | 20 207 | 176 614 | 171 836 |
| **Qoyun və keçi əti və ət məhsulları** | 1 291 | 88 946 | 4 793 | 95 030 | 93 081 |
| **Donuz əti və ət məhsulları** | 252 | 492 | 9 993 | 10 737 | 10 402 |
| **Quş əti və ət məhsulları** | 6 437 | 137 501 | 31 758 | 175 696 | 166 139 |
| **Süd və süd məhsullarının cəmi:** | 43 154 | 2 283 991 | 474 632 | 2 801 777 | 2 628 174 |
| **Yumurta, min ədəd** | 39 228 | 2 188 154 | 1 339 | 2 228 721 | 1 922 636 |
| **Balıq və balıq məhsulları** | 3 363 | 62 722 | 21 081 | 87 166 | 81 442 |
| **Pendir** | 6 426 | 55 063 | 9 165 | 70 654 | 63 390 |

mühüm aspektlərindən biri əhalinin ərzaq məhsullarına olan minimum tələbatını ödəmək hüququdur. İstehlakçı tələbatı və hər nəfərə görə ərzaq məhsulları istehlakının səviyyəsi əhalinin pul gəlirlərinin artım templərinin və ərzaq məhsullarının qiymətlərinin nisbətindən əhəmiyyətli dərəcədə asılıdır. Hesablamalar göstərir ki, 2024-cü ildə kənd təsərrüfatı məhsullarının istehsalçı qiymət indeksi, əvvəlki ilin müvafiq dövrünə nisbətən yanvarda 2,3%, fevralda 2,1%, martda 2,4%, aprel və mayda 2,5% yüksək olmuşdur. İyundan etibarən dinamika yüksələn xətt üzrə davam etmiş, dekabrda müvafiq dövrlə müqayisədə ən böyük qiymət artımı 4,7% (qrafik) müşahidə edilmişdir.




***Qrafik. 2024-cü ildə kənd təsərrüfatı məhsullarının istehsalçı qiymət indeksi əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə [8]***

Təbii ki, qiymət artımı əhalinin aztəminatlı təbəqəsi üçün arzuolunmazdır və onların alıcılıq qabiliyyətinə mənfi təsir göstərir. Ona görə ərzaq təminatı baxımından dövlətin ən mühüm vəzifələrindən biri əhalinin sosial cəhətdən həssas qruplarına ünvanlı ərzaq yardımı mexanizmlərinin yaradılması hesab olunur. Belə mexanizmlər istehlakçıların gəlir səviyyəsindən asılı olmayaraq müvafiq keyfiyyət və çeşiddə ölkənin ərzaq məhsullarına pulsuz çıxışını təmin etməyi nəzərdə tutur. Qeyd etmək lazımdır ki, ərzaq yardımı proqramları dünyanın əksər inkişaf etmiş ölkələrində əhalinin ərzaq təminatı proqramlarının tərkib hissəsidir.

Tədqiqat göstərir ki, ərzaq təminatı problemi iqtisadi mahiyyət kəsb etməklə yanaşı, sosial-iqtisadi problemdir, çünki bu, sosial sahəyə birbaşa təsir göstərir və böyük ölçüdə ondan asılıdır. Ona görə də ərzaq təminatı sisteminin səmərəliliyinin sosial təsirini nəzərə almaq son dərəcə vacibdir. Beləliklə, sosial sahə ölkənin sabit ərzaq təminatının həlli prosesində bir-biri ilə əlaqəli komponentlərdən ibarətdir. Məhz aqrar sahədə rəqabət üstünlüklərinin yaradılması, elmi-texniki potensialın formalaşdırılması, eləcə də insan potensialının aktivləşdirilməsi yolu ilə sosial-iqtisadi problemləri həll etmək mümkündür. Beləliklə, dayanıqlı sosial-iqtisadi inkişaf strategiyası əsasında rəqabət insan poten-

sialının reallaşdırılması, texnologiyaların davamlı təkmilləşdirilməsi, iqtisadi nəticələr və həyat keyfiyyətinin yaxşılaşdırılması yolu ilə ölkənin effektiv ərzaq təminatı sisteminin formalaşdırılmasının mümkünlüyü fikrini ümumiləşdirmək olar.

Beləliklə, alınan nəticələrin tətbiqindən aydın olur ki, effektiv ərzaq təminatı sistemi daxili bazarın əsassız idxal olunan ərzaq ehtiyatlarından qorunmasında, yerli istehsalçıların mövqelərinin gücləndirilməsində, eləcə də ölkənin ərzaqla özünü təmin etməsində, ərzaq müstəqilliyinin möhkəmləndirilməsinin mümkünlüyündə özünü əhəmiyyətli dərəcədə təsdiq edir. Ərzaq təminatı sistemi, həm də fövqəladə hallar nəticəsində ölkənin və onun ayrı-ayrı regionlarının ərzaq məhsulları ilə təmin edilməsi sistemində yaranan fasilələrin qarşısının alınmasına hazırlığın təmin edilməsini tələb edir [9, s.61]. Bu, strateji və operativ ərzaq ehtiyatlarının yaradılmasını, onların bölüşdürülməsi və istifadəsi üçün effektiv sistemin qurulmasını, dövlət tənzimlənməsi üçün iqtisadi alətlərin istifadəsini tələb edir.

Ölkənin aqrar ərzaq məhsulları ilə təminatı konsepsiyasına uyğun olaraq, bu istiqamətdə aşağıdakı əsas meyarları ümumiləşdirmək olar:

*– ərzaq məhsulları kompleksinin komponentlərinə uyğun olaraq istehlakçıların fizioloji tələbatının ödənilməsi səviyyəsi;*

*– əhalinin müxtəlif kateqoriyaları üçün ərzaq məhsullarının fiziki və iqtisadi əlçatanlıq səviyyəsi;*

*– ölkənin ərzaq və aqrar resurs təminatının idxaldan asılılıq dərəcəsi;*

*– normativ tələblər nəzərə alınmaqla strateji və operativ ərzaq ehtiyatlarının həcmi və s.*

**Nəticə.** Qeyd etmək olar ki, aqrar ərzaq təminatının mühüm parametrlərindən biri də ölkə istehlakında yerli və idxal olunan ərzaq məhsullarının ümumi payı və onların ayrı-ayrı prioritet məhsul növləri üzrə nisbətidir. Bu çərçivədə ərzaq məhsullarının fiziki mövcudluğu satış şəbəkələrində və ərzaq bazarlarında onların kəmiyyət və çeşidinin əhalinin tələbatına olan nisbəti ilə, habelə ərzaq tədarükünün həcmi və strukturu arasında uyğunluqla xarakterizə olunur. Ərzaq məhsullarının iqtisadi əlçatanlığını səciyyələndirən parametrlər isə əhalinin müxtəlif qruplarına standartla müqayisədə ərzaq məhsulları almağa imkan verən gəlirlərin həcmi və strukturu ilə özünü təsdiq edir. Bundan əlavə, aşağıdakı istiqamətlərin tətbiqi yolu ilə ölkənin aqrar ərzaq təminatı sisteminin effektivlik səviyyəsinə nail olmağın mümkünlüyünü də qeyd etmək olar:

*– ərzaq təminatı sisteminin səmərəliliyinin təmin edilməsi çərçivəsində mümkün özünütəminetmə meyillərini izləməklə zəruri iqtisadi və sosial mühitin yaradılması;*

*– tələb və təklifin tarazlıq vəziyyətini qiymətləndirməklə istehsalın resurs potensialından səmərəli istifadənin təmin edilməsi;*

*– alıcılıq qabiliyyəti baxımından əhalinin həssas qruplarının ərzaq məhsullarına əlçatanlığının təmin edilməsi və ərzaq yardımı proqramlarının tətbiqi;*

*– qiymətlərin səviyyəsi ilə istehlakçıların gəlirləri arasında mütənasibliyin qorunması;*

*– idxaldan asılılığın azaldılması məqsədi ilə yerli istehsalın stimullaşdırılması tədbirlərinin genişləndirilməsi;*

*– kənd təsərrüfatı istehsalında rəqabət potensialının artırılması və bazar infrastrukturunun inkişaf etdirilməsi;*

*– daha səmərəli ərzaq təminatı sistemini formalaşdırmaq məqsədi ilə dövlət sifarişi ilə ərzaq məhsullarının satın alınmasının mərkəzləşdirilmiş qaydada həyata keçirilməsində istehsalçıların maraqlarının nəzərə alınması;*

*– strateji və operativ ərzaq ehtiyatlarının həcminin ölkənin ərzaq təminatı strategiyasına uyğunlaşdırılması.*

## İstifadə edilmiş ədəbiyyat

1. Qurbanzadə A. Ərzaq kompleksinin modernizasiyası və dayanıqlı inkişaf problemləri. Bakı, “Kooperasiya” nəşriyyatı, 2017, 192 s.

2. Əmrahov V. Aqrar sferada istehsal potensialından istifadə səviyyəsinin qiymətləndirilməsi. “Kənd təsərrüfatı iqtisadiyyatı” jurnalı, 2020, №2(32), s.36.

3. “Azərbaycan Respublikasının ərzaq təhlükəsizliyi Proqramı”nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. 2 mart 2001.

4. "Ərzaq məhsullarının tədarükü və təchizatı" Açıq Səhmdar Cəmiyyətinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. 11 aprel 2016.

5. Quliyev E.A. Etibarlı ərzaq təminatı sistemi: kooperasiya və inteqrasiya problemləri (monoqrafiya). Bakı, "Elm" nəşriyyatı, 2013, 308 s.

6.https://www.stat.gov.az/source/food_balances/

7. Кейнс Дж.М. Общая теория занятости, процента и денег. Москва, ЗАО «Бизнеском», 2013, 408 с.

8. https://www.stat.gov.az/source/price_tarif/

9. Колесняк А.А. Продовольственное обеспечение: региональный аспект: (монография). Москва, Восход-А. 2007, 220 с.

**Y.Garayeva**

## Efficiency criteria of the agricultural food supply system

### Abstract

The implementation of a country's strategic goals and primary objectives related to food security is directly linked to the overall efficiency of the agricultural food supply system, including its main components – production, consumption, and the supply chain. The efficiency criteria of the agricultural food supply system are shaped by the combined influence of various production and consumption factors.The volume of agricultural production primarily depends on the efficient utilization of available resources – such as land, labor, and capital. On the other hand, the level of consumption is determined by factors including the volume of products offered, price fluctuations, and the purchasing power of the population.The effective functioning of the food supply system is also influenced by the extent to which domestic demand is met and the rational allocation of resources to achieve this goal. In this context, ensuring the efficiency and resilience of all stages of the supply chain – from production to the final consumer is of vital importance for achieving sustainable food security.

**Е.Караева**

## Критерии эффективности системы аграрного продовольственного обеспечения

### Аннотация

Реализация стратегических целей и основных показателей продовольственной безопасности страны характеризуется критериями эффективности функционирования элементов системы обеспечения продовольствием, включая производство, потребление и звенья цепи поставок в целом. Критерий эффективности аграрного продовольствия формируется в результате влияния всех факторов производства и потребления. Объем производства в аграрном секторе зависит от рационального использования имеющихся ресурсов, а уровень потребления, прежде всего, от объема предлагаемой продукции, тенденции изменения цен и покупательной способности потребителей. Система аграрного продовольствия формируется также под совокупным влиянием других факторов, таких как критерий удовлетворения потребностей страны на основе эффективного использования земли, труда и капитала. Поэтому оценка критериев эффективности продовольственного обеспечения страны является одним из важных вопросов.